# İgid odur atdan düşə, atlana

**İnsanlar hələ qədim dövrlərdən təbiəti ram etməyə, onun yetirdiyi nemətlərlə qidalanmağa, hətta geyinməyə, heyvanları isə əhlilləşdirərək məişətdə və təsərrüfatda istifadə etməyə səy göstərirdi. İnsan - təbiətə pənah gətirirdi. Özünü xata - bəladan qurtarmaq üçün ilkin, zəif də olsa yol axtarırdı. Təbiətin asılılığından can qurtarmaq cəhdi ilə insan təbiətə üstün gəlmək istəyirdi. Bu səylər müəyyən dini inam və inanclarla müşayiət olunurdu.**

Müxtəlif xalqlarda müxtəlif heyvan və quşlar müqəddəsləşdirilmiş, onlara sitayiş edilmişdir. Qəribə də olsa, bu gün - XXI əsrdə bu hal, bu xüsusiyyət müxtəlif formada davam etməkdədir.

Hər xalqın milli özünəməxsusluğu onun bədii təfəkkürünün, zövq və dünyagörüşünün ifadəsi olan yaradıcılığında öz əksini tapır. Türk-azəri xalqının ən çox sevdiyi bayatı və nağıllarında, rəvayət və əfsanələrində vəsf etdiyi - atdır. Bəllidir ki, türkdilli xalqlarda at zoomorfiq totemdir. Lakin atların hamısı deyil, boz rəngliləri fərqləndirilirdi. XIII əsrdə yaşamış Rəşidəddinin fikrincə, müqəddəslər, eləcə də şamanlar - baxşılar ayin icra edərkən guya göylərə, tanrının yanına getmək üçün boz at minərmişlər. Yakutlar boz atın dərisini belə müqəddəs sayırdılar. Qədim yazılı abidəmiz olan "Kitabi Dədə - Qorqud"da Xızır boz at minmişdir. Koroğlunun qanadlı Qır atı və Dür atı, Qaçaq Nəbinin Boz atı, Şirinin Gülgün atı və s. atların adları sahibləri ilə qoşa çəkilir, onlar qədər tanınır.

Azərbaycanda atçılığın tarixi minilliklərlə hesablanır. Hələ çox qədimlərdə evin böyüyünü dəfn etdikdə onunla bərabər atını da, silahını da torpağa tapşırırdılar. Belə bir inam var idi ki, ölənin ruhunu axirət dünyasına məhz onun atı aparacaq. Nəinki Azərbaycanda, ümumilikdə bütün Qafqazda igid ərənlərin qəbri üzərində - baş daşlarında at təsvir olunurdu. Həmçinin at formalı qəbir daşları da az deyil.

E.ə. I minilliyə aid gil qabların üzərində, mağaraların divarlarında at təsvirləri mövcuddur. Bu atlardan birinin başında buynuza bənzər bir şey vardır - bu, atın yalından düzəldilmiş tutacaqdır, dəstəkdir.

Bəzi qablar üzərində mifik obrazlar - bədəni insan, başı isə at formalı obrazlara da rast gəlinir.

Qərbi Avropa rəssamlığında bol - bol rəsm olunan kentavrlar - bədəni at, başı isə insan olan mifik obrazın əzəli ünvanı - Azərbaycandır.



Tunc dövründən bir sıra ev heyvanları ilə yanaşı at da yerli qəbilə totemi, qəbilə əcdadları hesab olunur, onlara sitayiş olunurdu. Dəmir dövründə bu surətlər zoomorfiq allahlar antomorfiq allahlarla əvəz olunur, onların rəmzi obrazlarına çevrilmişlər.

Yeni eradan başlayaraq qədim türklər ata daha çox diqqət yetirmiş, onu həm bu dünyanın, həm də axirət dünyasının dostu hesab etmişlər. At ilə dəfn mərasimi ilk orta əsrlərdə daha da tərəqqi etmişdir. Oğuz türkləri X əsrin əvvəllərində ölüləri "cənnətə" aparsın deyə düzəltmə at fiqurlarından istifadə edir, qəbirlərə kiçik ölçülü, yaxud qəbrin üstünə iri ölçülü at fiquru yerləşdirirdilər.





Zaman - zaman "allahlar" da dəyişmiş, etiqad və əqidələr də yeniləşmişdir. Lakin ata olan məhəbbət sovuşmamış, bu bağlılıq yeni məna kəsb etməyə başlamışdır.

At xalqımızın həyatında, məişətində, incəsənətində, hətta əxlaqi görüşlərində mühüm yer tutmuşdur. Belə ki, şifahi xalq yaradıcılığında - nağıllarda, əfsanə və rəvayətlərdə at xüsusi ehtiram və sevgi ilə yad edilir.

Ata olan mehr - məhəbbət at ilxılarının (xüsusilə Qarabağda - Mehdiqulu xan Cavanşirin, qızı Xurşid Banu Natəvanın) yaranmasına, atçılığın inkişafına səbəb olmuşdur. Zəngin keyfiyyətlərə malik atın bir xüsusiyyətinə diqqət yetirək: Azərbaycan otlaqlarında bitən 600 növ müxtəlif ot bitkilərinin yalnız 81 növündən altar istifadə edir. Yəni atlar hansı ot olsa, otlamır.

Təsərrüfatla yanaşı minik vasitəsi kimi istifadə olunan atlar xalq oyunlarımızın, el şənliklərimizin, mövsüm və ailə - məişət mərasimlərinin iştirakçısı olmuşdur. "Cıdır düzü" - Şuşada ucalıqda yerləşən, bir tərəfi sıldırım uçurumlar olan, köhlənlərin kişnərtisi kəsilməyən cıdırlarda, yarışlarda ərənlərin hünər göstərdiyi məkandır. Azərbaycanda tikilən memarlıq abidələrinin əksəriyyətində atlar üçün tövlələr nəzərdə tutulurdu. Atla bağlı sənətlər də meydana gəlir, sənətkarlar formalaşırdı - nalbəndlər, yəhər - yüyən hazırlayanlar, və s. Qadınlar isə böyük məhəbbət və məharətlə ipək sapdan zimpuş, yun sapdan yəhərüstü, çul, çaldar, xurcun toxuyurdular, tərlik hazırlayırdılar. Yəhərüstü qotazlarla bəzədilirdi. Çulun bəzədilməsində isə gümüş bəzək nümunələrindən istifadə olunurdu. Atın sinəsinə, boğazaltına (nayz), başına bəzəklər taxılırdı.

Qadınlarımız toxuduğu xalçalarda atın təsvirinə geniş yer ayırırdılar - "Atlı", "Atlı - itli", "Ovçuluq" xalçaları, şəddələr bu qəbildəndir.

At bizim həyatımızla o qədər bağlı idi ki, hətta onun oğurlanması, yaxud yalının, quyruğunun kəsilməsi düşmənçilik yaradır, qan salırdı. Ailənin razılığı olmadan ərə gedən, daha dəqiq desək, qoşulub qaçan qız tövlədən atasının atını da apartdırırdı. Mehtər ən inanılan adam olmalı idi.

Tarixdən məlumdur ki, at döyüş meydanında sahibi ilə bərabər vuruşur, yaralanarsa düşmən pəncəsinə düşməsin deyə onu meydandan çıxarıb apara bilirdi.

Tərtər rayonu ərazisində aparılan qazıntılar zamanı aşkar edilmiş, hələ e.ə.VIII əsrə şamil olunan atların alın, baş və döş zirehləri, Mil düzündən tapılan sümükdən düzəldilmiş zirehlər, əsasən isə metaldan (istər toxunma, istərsə də lövhə) hazırlanan zirehlər atların hərbi yürüşlərdəki mövqeyindən söz açır.(Bu gün onlar bir çox dünya muzeylərinin kolleksiyasının ən dəyərli eksponatlarıdır.)

At igidlərin igidliyi, şücaəti deməkdir. Oğullar öz hünərini at ilə nümayiş etdirə bilirdi. O da məlumdur ki, sahibi öləndə at da ona yas saxlayar, camaata qoşulub qəbirstanlığa gedər, göz yaşı tökər, yad adamlara tabe olmazdı.

Yaxşı at - sədaqətli dost, vəfalı yoldaş, anlaqlı sirdaş deməkdi.

Cəldliyi, dözümlülüyü, hərəkət sürətinə görə Qarabağ atları bütün Zaqafqaziyada, Orta Asiyada seçilirdi. 1865-ci ildə Şuşada olmuş ruz rəssamı V.Vereşşaqin Cəfərqulu xanın (Mehdiqulu xan Cavanşirin qardaşı Mehralı xanın oğlu) atçılıq zavodunda olmuş, atların gözəlliyinə heyran qalmış, hətta



onların rəsmini çəkmişdir. Atasının atçılıq təsərrüfatını yaşadan X.B.Natəvanın Şahbulaqdakı at ilxısını görən S. Talizin qeyd edir ki, "Xan" ad ilə məşhurlaşan ilxıdakı atların uca boyuna və yaraşıqlı görkəminə valeh oldum.

Azərbaycanda olmuş bir çox səyyahlar, o cümlədən İtaliya diplomatı Ambrocco Kontarini, İosafat Barbaro, Katerino Zeno, Antoni Cenkinson, Adam Oleari Azərbaycanın ictimai - siyasi həyatı, iqtisadiyyatı, adət - ənənələri haqqında ətraflı məlumat verərək atların gözəlliyini və çoxluğunu da xüsusi vurğulayırdılar. Ambrocco Kontarini yazırdı: "Qadınlar dedikcə qəşəng geyinirlər. Geyimdə olduğu kimi at çapmaqda da kişilərdən daha mahirdilər."

XIX əsrin II yarısında və XX əsrin əvvəllərində Rusiyada, Avropa ölkələrində Qarabağ atları müxtəlif medal və mükafatlara layiq görülmüşdür.

Qızılı - kürən rəngli, mütənasib bədən və gözəl baş quruluşuna malik, davamlılığı, nazik ayaqları, yaraşıqlı görkəmi ilə diqqəti cəlb edən Qarabağ atları az qala ilxı şəklində Rusiyaya, Avropaya, İrana, Ərəb ölkələrinə, Orta Asiyaya aparılmış, iqlimə, şəraitə uyğunlaşdırılmış və artırılmışdır. Atlar XX əsrin ən böyük bəlası olan hər iki dünya müharibəsində də öz şücaətini göstərə bilmişdir.

At - təsviri sənətdə də özünəməxsus yer tutur. Orta əsr miniatür nümunələrində, bu üslubda toxunmuş bədii parçalar üzərində də atlı təsvirinə geniş yer verilirdi.

İstanbulun Topqapı muzeyində saxlanılan,1507 - ci il tarixli Şah İsmayıl Xətainin qızıl kəmərinin üzərində atlı gənc təsviri mövcuddur. Boston muzeyinə məxsus XVI əsrdə tikilmiş məxmər çətir üstündə atlıların ov səhnəsi təsvir edilmişdir. Azərbaycanda - Şəki xan sarayının, Şuşada yaşayış evlərinin divar rəsmlərində atlıların döyüş və ov səhnəsi üstünlük təşkil edir.

At - muraddır, arzudur. Yaxşı ata kişmiş yedirdər, gözəl qulluq edərdilər. Ata qarşı kobud, yaxud laqeyd münasibət qəbahət hesab olunardı. Atı kəndin içində minib çapmazdılar, hara isə, evindən, obasından uzaq getmək istəyən atın yüyənindən tutub yavaş - yavaş kəndin içi ilə gedərdi - "hara gedirəm, niyə gedirəm?" sualları üzərində düşünməyə imkan yaranırdı.

Keçmişdə gəlin köçəndə "Gəlin atlandı" - yəni ata minib ər evinə yola düşən məqamı, kövrək duyğuları ifadə edən musiqi (bu gün "Vağzalı") çalınardı.

Yuxuda at görmək xeyirliyə yozulur - "istəyinə, arzuna tez çatacaqsan" deyirlər. İlin heyvanlar üzrə təhvil olma cədvəlində at ili də mövcuddur və belə bir inam var ki, il at üstə təhvil olanda müharibə, qaçhaqov olar. (1990 - cı il)

Evə göz dəyməsin deyə qapıya atın nalını asarlar.

Elmi - texniki tərəqqi, mədəniyyət və incəsənətin inkişafı, məişətin köklü yeniləşməsi insan şüurunun zəruri olaraq dəyişməsinə, həyata, dünyaya baxışlarında, estetik görüşlərində köklü dönüş yaranmasına səbəb olmuşdur. Təbii ki, atlar artıq bu gün bizim həyatımızda, məişətimizdə ilkin mövqeyini itirmişdir.

Lakin xalqımızın milli - etnik xüsusiyyətləri, qan yaddaşı əsrlərdən əsrlərə, nəsillərdən nəsillərə adlayıb yaşanan böyük bir mənəvi dəyərlər xəzinəsi olan xalq yaradıcılığının ən maraqlı və təzadlı səhifələri məhz atla bağlıdır.

At ilə bağlı atalar sözləri:

**Atı igid altında tanıyarlar.**

**Atın var - qanadın var.**

**Atı olan qaldı, yəhəri olan getdi.**

**Ay keçməmiş atı tərifləmə, il keçməmiş - arvadı.**

**Birində - bəslə, ikisində - saxla, üçündə - min, dördündə oldu at, olmadı - sat.**

**Atın dörd ayağı var, o da büdrəyir.**

**Qocaların sözüylə arvad al, cavanların sözüylə - at!**

**• Elmira QASIMOVA**